

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 8 (23.650)

14 yanvar 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev müharibə zamanı Azərbaycana dəyən ziyanın qiymətləndirilməsi prosesinə başlanıldığını, bunun təcavüzkar Ermənistan dövlətini beynəlxalq məhkəmələrə vermək imkanı yaradacağını diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib ki, Azərbaycanın tarixi torpaqlarının azad edilməsi təkcə bizim tariximizdə tarixi hadisə deyil, eyni zamanda müharibələr tarixində əlamətdar hadisədir.

Prezident İlham Əliyev ICESCO-ya Azərbaycana davamlı dəstək göstərdiyinə, xüsusilə müharibə zamanı qəbul edilmiş qərarlara görə minnətdarlığını bildirib.

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik deyib ki, Azərbaycan hər zaman bizim üçün prioritet olub və olmağa davam edəcək. Biz Qələbəni qeyd etdik, çünki bu, bizim bir parçamızdır, Sizin Qələbəniz ICESCO-nun qələbəsinin bir parçasıdır.

Sonra Prezident İlham Əliyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik və nümayəndə heyətinin üzvləri ilə xatirə şəkilləri çəkdirib. ICESCO-nun Baş direktoru Qələbə münasibətilə Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim edib.



# Müasirləşən Naxçıvan

***İnsanlığın özü qədər qədim olan Naxçıvan geosiyasi əhəmiyyətliliyi, ecazkar təbiəti və təbii sərvətləri, qədim və zəngin mədəniyyəti ilə yanaşı, güclü dövlətçilik ənənələri ilə də bütün Şərqdə fərqlənən ulu diyardır. Görkəmli dahi şəxsiyyətlər, siyasi xadimlər yetirən bu qədim diyarın şanlı tarix salnaməsində keşməkeşli mübarizələr, inkişaf və tərəqqi mərhələsinin özünəməxsus yeri var.***



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi blokada nəticəsində iqtisadi və siyasi böhran məngənəsində çırpınan, erməni yaraqlılarının hücumları ilə təkbətək qalan muxtar respublikanı məhv olmaq təhlükəsindən xilas etdi. Dahi şəxsiyyətin Naxçıvanın xilaskarı kimi göstərdiyi misilsiz xidmətlərindən biri də o idi ki, ulu öndər hələ sağlığında Naxçıvanla bağlı arzularının gələcəkdə gerçəkləşməsi, quruculuq xəttinin sonrakı dövrlərdə də uğurlu davam etdirilməsi qayğısına da qalmışdı. Ümummilli lider Naxçıvanın gələcəyini inamla etibar edə biləcək, milli şüura və dərin təfəkkürə malik, vətənpərvər siyasi xadim yetişdirməsi ilə də tarixə əvəzsiz siyasi lider kimi hakk oldu. Bu tarixi şəxsiyyət 14 yanvar 1960-cı il tarixdə sadə, zəhmətkeş bir ailədə dünyaya gələn, Naxçıvana rəhbərliyi 35 yaşında ikən, ən mürəkkəb və ağır ictimai-siyasi şəraitdə şərəflə öz üzərinə götürən və 25 il diyarımızın inkişaf salnaməsini yazan cənab Vasif Talıbovdur.

Ulu öndər Naxçıvana ilk səfərində Naxçıvanın yeni rəhbərliyi tərəfindən qısa müddət ərzində muxtar respublikada həyata keçirilmiş müsbət dəyişikliklərin şahidi olmuş, onları yüksək qiymətləndirərək demişdir: ***"...Muxtar respublikada işlər normal vəziyyətdədir. Görürəm ki, qısa müddətdə Naxçıvanda çox işlər görülübdür... Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır... Əminəm ki, bundan sonra da dayaq olacaqdır".***

Fəaliyyətini görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyini bəyan edən muxtar respublika rəhbəri yalnız bir amala – dahi rəhbərin böyük ideyalarını gerçəkləşdirmək amalına sadiq qaldığını hər addımda sübut etdi. Naxçıvan qorundu, onun düşmən əlinə keçməsinə imkan verilmədi. Dahi şəxsiyyətin Naxçıvanla bağlı arzuları, quruculuq xəttinin davamı bu minvalla sonrakı dövrlərdə də muxtar respublikanın inkişafını təmin etdi. Bütün sonrakı siyasi uğurlar, tükənməz el məhəbbəti məhz ulu öndər Heydər Əliyev uzaqgörənliyini, müdrikliyini, cəsarət və qətiyyətini yaşatmaqla qazanıldı. İstənilən davamlı inkişafın əsasını, ilk növbədə, sabitliyin, əmin-amanlığın bərqərar olması təşkil etdiyini uzaqgörənliklə dərk edən muxtar respublika rəhbəri, ilk növbədə, diyarımızda dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasını təmin etmək istiqamətində ardıcıl tədbirlər həyata keçirdi, ümummilli liderin əsasını qoyduğu rəhbər-vətəndaş həmrəyliyi qarşılıqlı etimad sayəsində daha da gücləndirildi. Nəticədə, diyarımızda sabitlik, asayiş təmin olundu, Naxçıvan artıq ən təhlükəsiz, əmin-aman bir diyara çevrildi.

Qədim diyarımızın Azərbaycandan ərazi etibarilə ayrı düşməklə yaranan çoxsaylı problemlərinin həlli, muxtar respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafına nail olunması bu gün dövlətçilik tariximizdə Heydər Əliyev ideyalarına siyasi sadiqlik əzmi, inkişafın Naxçıvan modeli, Azərbaycan dövlətçiliyinə xidmət nümunəsi kimi dəyərləndirilən mühüm tarixi mərhələni təşkil edir. Kənd və şəhərlərimizin abadlaşdırılması, inzibati binaların, sosial obyektlərin tikilməsi, tarix və mədəniyyət abidələrinin bərpası, yolların çəkilməsi, səliqə və sahmanın ən yüksək səviyyədə olması, insanların rifah halının yaxşılaşması çoxlarının həsəd apara biləcəyi, etiraf edək ki, elə həqiqətən də, inanılmaz gerçəklikdir. Bütün bunlara Ali Məclis Sədrinin qətiyyətli mövqeyi, yüksək idarəetmə bacarığı, ulu öndər Heydər Əliyev siyasətinə sədaqəti və əzmkarlığı sayəsində nail olundu.

Muxtar respublikada aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahələrdəki irəliləyişlər bu gün diyarımızı Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirmişdir. Sənayedə, tikintidə, kənd təsərrüfatında, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar qazanılmış, bu tədbirlər kəndlə şəhər arasında fərqi ortadan qaldırmışdır. Muxtar respublikada əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatların ardıcıl həyata keçirilməsi, kənd təsərrüfatında aparılan struktur dəyişiklikləri zəhmətkeş naxçıvanlıları öz doğma yurduna, torpağa bağladı. Nəticədə, vaxtilə bir kisə unun belə, qonşu ölkədən gətiriləcəyinə ümid bəsləyən bir diyarda ərzaq təhlükəsizliyi tamamilə həll edildi. Təkcə 2020-ci ildə 537 milyon 584 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmiş, taxıl istehsalı 115 min 649 ton olmuşdur.

Ötən əsrin 90-cı illərinin ortalarında muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, bu gün diyarımızda belə müəssisələrin sayı 442-yə çatıb. Prezident cənab İlham Əliyevin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasında Şərur Sənaye Məhəlləsinin yaradılması sahibkarlığın inkişafı üçün əlverişli şəraitin təmin edilməsinə, əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasına öz töhfəsini verəcək. Aparılan siyasət nəticəsində Ümumi Daxili Məhsulun həcmi 1995-ci ilə nisbətən 65,5 dəfə, sənaye məhsulunun həcmi 113,9 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 341,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 13,9 dəfə, nəqliyyat sektorunda yük daşınması 26,5 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 132 dəfə, xarici ticarət dövriyyəsi 26,8 dəfə, ixrac potensialı 221,2 dəfə, əhalinin gəlirləri isə 60,7 dəfə artmışdır. Bir zaman zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 127 növü ərzaq, 257 növü qeyri-ərzaq olmaqla, 384 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Muxtar respublika rəhbərinin bu sahəyə ciddi diqqət yetirməsi sayəsində ümumi daxili məhsulda istehsal həcminə görə sənaye ilk yeri tutur. Təkcə 2020-ci ildə 1 milyard 40 milyon 475 min 900 manatlıq sənaye malları istehsal olunmuşdur ki, bu bir il öncəki göstəricini 1,4 faiz üstələyib.

"Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın təsdiq olunması istehsal olunan məhsulların ixrac imkanlarının artmasına və xarici bazarlarda tanınmasına şərait yaratmışdır. Həmçinin sistemli tədbirlərin həyata keçirilməsi sahibkarlıq subyektlərinin ixracyönümlü məhsul istehsalını da stimullaşdırmışdır. 2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 450 milyon 839 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 86 faizi, yaxud 387 milyon 540 min Amerika Birləşmiş Ştatları dolları ixracın payına düşmüş, müsbət saldo yaranmışdır.

Muxtar respublikada iqtisadi sahədə əldə olunmuş nailiyyətlər 1995-ci ildən başlayaraq tikinti-quruculuq və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır. Quruculuq və abadlıq işləri muxtar respublikanı paytaxtından ən ucqar sərhəd kəndlərinədək əhatə etmişdir. Son 25 ildə muxtar respublikada 622 inzibati bina, 415 elm və təhsil, 543 mədəniyyət obyekti, 305 səhiyyə müəssisəsi, 173 nasos stansiyası, 435 subartezian quyusu, 187 körpü, 7027 istehsal, xidmət və digər obyektlər, 55 idman obyekti, sağlamlıq imkanları məhdud, məcburi köçkün, qaçqın, şəhid ailələri üçün 543 fərdi ev tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Bütün bu uğurların əldə olunmasında enerji təhlükəsizliyinin təmin edilməsi də mühüm rol oynayır. Əgər 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur ki, bunun da 6-sı bərpa olunan enerji mənbələridir. Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir ki, bu da inkişaf etmiş ölkələr üçün çox nadir göstərici hesab edilir. Hazırda Ordubad və Tivi Su Elektrik stansiyaları, Şərurda Günəş və Culfada Külək-Günəş Hibrid Elektrik stansiyaları tikilir.

Muxtar respublikada 17 min hektardan çox sahədə yaşıllıqlar, meşə massivləri, meyvə bağları salındı. Yaşıllıqların ümumi sahəsi 0,6 faizdən 20 faizə qədər artırıldı, diyarımızın flora və faunası daha da zənginləşdirildi, füsunkar təbiəti daha gözəlləşdi.

Son onilliklərdə muxtar respublikada əldə edilmiş sosial-iqtisadi inkişaf rabitə və yeni texnologiyalar sahəsini də əhatə etmişdir. Əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə müasir rabitə sistemi yaradılmış, ən ucqar dağ kəndlərində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir. Hazırda muxtar respublikada istismar olunan 214 avtomat telefon stansiyasının 91 faizi yeni nəsil texnologiyalara əsaslanır. Bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Naxçıvanın beynəlxalq trans-Avrasiya fiber-optik magistrallarına ikitərəfli çıxışı təmin edilmişdir. Muxtar respublikanın

Ardı 2-ci səhifədə

hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı da təmin olunmuş, bütün yaşayış məntəqələrinin genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətlərindən istifadəsi reallaşdırılmışdır.

Naxçıvan Muxtar Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi, sərbəst yaradıcılıq imkanları yaradılması nəticəsində teleradiolar və qəzetlər üçün müasir maddi-texniki baza istifadəyə verilib, yeni informasiya agentliyi fəaliyyətə başlayıb, 400-dən çox media nümayəndəsi hərtərəfli qayğı ilə əhatə olunub.

Muxtar respublikada ölkə rəhbərinin uğurlu siyasətini rəhbər tutmaqla həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayandığını naxçıvanlılar gündəlik həyatlarında əməkhaqqı və pensiyaların artırılmasında, yeni iş yerlərinin açılmasında, əhali gəlirlərinin yüksəlməsində, mənzil-məişət şəraitinin yaxşılaşmasında, yaşayış şəraitinin artmasında, insan sağlamlığına, sağlam gələcək nəsil yetişdirilməsinə göstərilən qayğıda hiss edirlər. İnsanların rahat yaşayışı, məşğulluğunun təmin olunması qarşıda duran əsas vəzifələrdir. Bu sahədə Dövlət proqramı icra olunur, gənc ailələrin sosial müdafiəsi gücləndirilir, sahibkarlığa diqqət artırılır, fiziki imkanları məhdud insanların sosial layihələr çərçivəsində məşğulluğu təmin edilir.

Heç şübhəsiz ki, muxtar respublikada son onilliklər ərzində əldə olunan çoxsaylı uğurların, inkişaf və tərəqqinin əsasında elm və təhsil quruculuğu, güclü kadr potensialının formalaşdırılmasına dövlət qayğısı, həssas münasibət dayanır. Vətənpərvər və təhsilli gənc nəsil yetişdirmək məqsədilə görülən çoxsaylı tədbirlər nəticəsində vaxtilə, sözün hər iki mənasında, qaranlıq hücrələrdən seçilməyən məktəblər əsl müasirtipli ziya ocaqlarına çevrildi. Nəticədə, gələcəyimiz olan yenivetmə və gənclərin vaxtilə təhsildən yayınma hallarının qarşısı alındı, diyarımızda fundamental elm, tədris bazasının əsası qoyuldu. Ötən dövrdə müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilib, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilib, 2 universitet şəhərciyi salınıb, peşə məktəbləri yaradılıb. Muxtar respublikada uğurla aparılan təhsil quruculuğu siyasəti təhsilin bütün pillələri üzrə müasir infrastrukturun, tədris şəraitinin yaradılması, yeni texnologiyaların tətbiqi ilə məhdudlaşmadı. Təhsilin inkişafı, innovativ təhsil üsullarının tətbiqi istiqamətində diyarımızda "İnnovativ dərnəklər", "Sabahın tədqiqatçıları", "Sabahın müəllimi", "İnteraktiv dərs", "Nümunəvi dərs", "Distant təhsil" layihələri, şagirdlərə elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulan STEAM təlim metodu tətbiq edilir. Ali Məclis Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı imzaladığı tarixi sərəncamlar gələcək mütəxəssislə işəgötürən arasında əməkdaşlığın, düzgün kadr seçiminin müəyyənləşdirilməsi baxımından əhəmiyyət kəsb edir.

İctimai-siyasi, iqtisadi-mədəni həyatda gənclərin fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq Dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, gənclərin həyat şəraitinin, xüsusilə onların mənzil təminatının yaxşılaşdırılması göstərilən qayğının daha bir ifadəsidir.

Son 25 ildə muxtar respublikada AMEA Naxçıvan Bölməsinin səmərəli fəaliyyətinin təşkili, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin, Bilik Fondunun, Elmin İnkişafı Fondunun yaradılması da elmə və təhsilə göstərilən yüksək dövlət qayğısının daha bir ifadəsidir. Bu isə, təbii ki, elmi potensialın artması ilə nəticələnmişdir. Hazırda muxtar respublikada 7 nəfər AMEA-nın üzvü, 28 nəfər elmlər doktoru, 251 nəfər fəlsəfə doktoru fəaliyyət göstərir, onlardan 24 nəfəri professor, 194 nəfəri dosent elmi adını daşıyır.

Naxçıvan Muxtar Respublikasında mədəniyyətə, milli-mənəvi dəyərlərə, tarixi irsə göstərilən böyük diqqəti isə ***"Tarixi yaşadanları tarix də yaşadır"*** kimi müqəddəs amalın bəhrəsi kimi dəyərləndirmək olar. Bu günə qədər muxtar respublikada 1216 abidə qeydə alınaraq tədqiq edilmiş, onlardan 70-dən çoxu bərpa edilməklə xalqımızın qədim tarixi irsi kimi ona yenidən qaytarılmışdır. Həmçinin "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi də mühüm əhəmiyyət daşıyır.

Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparılması, nəfis tərtibatlı elmi-kütləvi, ensiklopedik nəşrlərin həyata keçirilməsi, Məhəmməd Tağı Sidqi, Məhəmməd ağa Şahtaxtlı, Behbud ağa Şahtaxtinski, İslam Səfərli, Xalq şairi Məmməd Araz, Əziz Şərif, Eynəli bəy Sultanov, Bəhruz Kəngərli, Şamil Qazıyev, İbrahim Səfiyev, Nemətullah Naxçıvani kimi görkəmli tarixi şəxsiyyətlərin, maarifpərvər ziyalıların, elm xadimlərinin, söz-sənət adamlarının irslərinin araşdırılıb öyrənilməsi, yubileylərinin dövlət səviyyəsində keçirilməsi, digər muzeylərlə yanaşı, Duz Muzeyi, Milli Dəyərlər Muzeyi, Açıq Səma Altında Muzey kimi xüsusi profilli mədəniyyət obyektlərinin yaradılması əsl diyarşünaslıq epopeyası olub, muxtar respublikamızın tarixi, mədəniyyəti, təbii sərvətlərinin tanıdılması istiqamətində mühüm əhəmiyyətə malik addımlardır. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi, Naxçıvanın "Gənclər Paytaxtı" adını qazanması, Naxçıvan şəhərinə, onun tarixinə, mədəniyyətinə, inkişaf səviyyəsinə bəslənilən ehtiramın bariz ifadəsidir.

Muxtar respublikada son illərdə daha çox diqqət yetirilən sahələrdən biri də turizmdir. Naxçıvanda dağxizək turizmindən tutmuş çimərlik turizminə, dini ziyarət turizmindən müalicəvi turizmə, kənd turizminə qədər turizmin bütün növlərinin inkişafı üçün geniş imkanlar yaradılmışdır. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması turistlərin diyarımıza marağını xeyli artırıb. Görülən işlərin nəticəsidir ki, hər il orta hesabla muxtar respublikaya 400 mindən artıq turist gəlir.

Günbəgün inkişaf edən, müasirləşən, abadlaşan qədim Naxçıvan mənfur düşmən üçün ikiqat gözdağına çevrilmişdir. Ona görə ki, muxtar respublikada böyük sevgi ilə qurmağı, yaratmağı bacaran həm də onu qətiyyət və iradə ilə qoruyurdu. Naxçıvanda əsası ümummilli lider tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün uğurla davam etdirilir. Ali Məclisin Sədri muxtar respublikanın hərtərəfli inkişafına ciddi fikir verməklə yanaşı, diyarın geosiyasi vəziyyətini də daim diqqətdə saxlamış, ölkə başçısının da diqqət və qayğısından bəhrələnərək Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi, ixtisaslı hərbçi kadrların yetişdirilməsi ilə hərbi potensialı əsaslı şəkildə möhkəmləndirmişdir. Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın ərazisini qorumaqla yanaşı, İkinci Qarabağ müharibəsində də əsl rəşadət və vətənpərvərlik nümunəsi göstərmişdir. Ötən il noyabr ayının 10-da Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması nəticəsində imzalanan üçtərəfli Bəyanatda Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yolları vasitəsilə birləşdirmək məsələsinin də öz əksini tapması Naxçıvanın kommunikasiya əlaqələrini bərpa etməklə diyarımızın gələcək inkişafında müstəsna rol oynayacaq.

Ümummilli liderin inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən uğurla həyata keçirilməsi, Heydər Əliyev ideyalarına sonsuz sədaqət sayəsində mümkün olmuşdur. Ali Məclisin Sədri demişdir: ***"Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: "Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik".***

*Bu gün inkişaf etdirilmiş və əsaslı şəkildə yenidən qurulmuş Naxçıvan Muxtar Respublikası qurucu RƏHBƏRİN əsəri, bugünkü və gələcək nəsillərə ən böyük töhfəsi, ümummilli lider Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Ötən ilin yekunları müzakirə olunub



Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən iclası hava limanının direktoru Mənşur Gülməmmədli açaraq bildirib ki, muxtar respublika rəhbərinin göstərdiyi dövlət qayğısı sayəsində hava limanının hər il olduğu kimi, 2020-ci ildə də intensiv inkişaf prosesi davam edib. Aviasiya və uçuşların təhlükəsizliyinin təmin olunması istiqamətində ayrı-ayrı xidmət sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılıb. Belə ki, Hava gəmilərinə texniki xidmət sahəsi, Yanğın təhlükəsizliyi və qəza xilasetmə komandası, Texnoloji avadanlıqların istismarı və təmiri sahəsi, Xüsusi avtonəqliyyat xidmətlərinin maddi-texniki bazası gücləndirilib, həmin xidmətlərə ən müasirtipli texnikalar alınıb. Xüsusi avtonəqliyyat xidmətinə 1 "Man" markalı təyyarəyə yanacaqvuran maşın və şassi üzərində "Paksan" markalı teleskopik platforma, 1 "Man" markalı yanğınsöndürən maşın, 1 "TUG 660" modelli baqaj konveyeri alınıb. Hava limanı üçün ən vacib və səmərəli layihələrdən biri 2020-ci ilin ilk aylarında istismara verilən köhnə asfalt örtüklü uçuş-enmə zolağının yenidən qurulması və tikintisi olub. Uzunluğu 3300, eni 60 metr, ümumi sahəsi 198 000 kvadratmetr olan uçuş-enmə zolağı, enmə, yan təhlükəsizlik, son tormozlama zolaqları, həmçinin Cənubi Koreya istehsalı olan "You Yang" tipli "Kat-1" markalı işıqsiqnal avadanlıqları, hər iki istiqamətdə Almaniya istehsalı olan "İLS-420" tipli cihazlarla enməni təmin edən yerüstü naviqasiya sistemləri ilə, həmçinin çətin hava şəraitində təyyarələrin təhlükəsiz qəbulu və uçuşu üçün Finlandiya istehsalı olan "Xrams-4" tipli avtomatlaşdırılmış metroloji avadanlıqlarla təmin edilib. Təhlükəsizliyin təmin olunması üçün zolaqda perimetrboyu termal videomüşahidə sistemi və quşlardan mühafizə sistemi quraşdırılıb. Həmçinin yeni mühafizə postu binası tikilib. Hava limanı ərazisində yerləşən iki mərtəbədən ibarət inzibati polis binası əsaslı təmir olunub.

Qeyd edilib ki, uçuşların elektrik işıq texnikası ilə təminatı sahəsində yüksək gərginlik xətləri möhkəmləndirilib, yeni naqillər çəkilib, hava limanı ərazisini işıqlandırma sistemi və təhlükəsiz enerji ilə təmin etmək üçün müasir avadanlıqlar alınıb. Sərnişinlərə göstərilən xidmətin keyfiyyətini yüksəltmək və qeydiyyat sisteminin avtomatlaşdırılması üçün "Gabriel bilet satışı sistemi" və "Amedeus qeydiyyat sistemi" daha müasir "Videcom sistemi" ilə əvəz edilib. Sərnişindaşımalarda, il ərzində yerli hava xətləri ilə 78 429 sərnişin, 1 371 015 kiloqram baqaj, 380 628 kiloqram yük, 36 910 kiloqram poçt daşınıb. Beynəlxalq hava xətti ilə Naxçıvan-İstanbul istiqamətində 4126 sərnişin, 80 472 kiloqram baqaj, Naxçıvan-Moskva istiqamətində 591 nəfər sərnişin, 10 156 kiloqram baqaj daşınıb. 2020-ci il ərzində Naxçıvan Beynəlxalq Hava Limanında, ümumilikdə, 83 146 sərnişinə xidmət göstərilib.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



2020-ci ilin yekunlarına dair keçirilən yığıncağı giriş sözü ilə "Naxçıvanpoçt" publik hüquqi şəxsin direktoru Səxavət Bağırov açaraq bildirib ki, 2020-ci ildə "Naxçıvanpoçt" publik hüquqi şəxsin kollektivi, öz növbəsində, yaradılan şəraitdən istifadə edərək il ərzində əhaliyə fasiləsiz xidmət göstərib. Belə ki, əhalidən istehlak edilmiş elektrik enerjisinə görə 6 milyon 659 min 318 manat, təbii qaza görə 10 milyon 600 min 902 manat, suya görə 1 milyon 702 min 65 manat, rabitə xidmətlərindən istifadəyə görə 1 milyon 964 min 86 manat, internet istifadəçilərindən 1 milyon 762 min 580 manat, bələdiyyə ödənişlərindən 144 min 315 manat, məişət tullantısının yığılmasına görə 151 min 709 manat, üzvlük haqlarından isə 903 min 726 manat vəsait toplanılıb. Həmçinin 2020-ci il ərzində 19 milyon 344 min 863 manat pul baratı qəbul olunub, 16 milyon 279 min 300 manat pul baratı ödənib. Eyni zamanda muxtar respublika üzrə 1 milyon 588 min 561 manat pensiya ödənişi aparılıb. Xidmətin keyfiyyətinin yüksəldilməsi və fasiləsizliyin təmin edilməsi nəticəsində "Naxçıvanpoçt" publik hüquqi şəxsin gəlirləri ötən illə müqayisədə 100 min manatdan çox artıb.

Vurğulanıb ki, nağdsız ödənişlərin təşviqi istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına uyğun olaraq "Naxçıvanpoçt" publik hüquqi şəxsin bütün xidmət sahələrini əhatə etməklə 182 POS-terminal quraşdırılıb.

Məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində keçirilən tədbiri giriş sözü ilə açan departamentin direktoru Əkbər Novruzov bildirib ki, ötən il də "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası davam etdirilib. Naxçıvan Turizm İnformasiya Mərkəzində təbliğat sahəsində fəaliyyət gücləndirilib, mərkəzə müraciət edən turistlərin sorğuları aidiyyəti üzrə cavablandırılıb. Mərkəz tərəfindən Azərbaycanda və 20-dən çox xarici ölkədə fəaliyyət göstərən 200-dən



çox mehmanxana və turoperatorun elektron poçt ünvanlarına, bölgələrdə fəaliyyət göstərən 11 turizm informasiya mərkəzinə, ümumilikdə, 5000-ə yaxın məlumat göndərilib.

Qeyd edilib ki, il ərzində mərkəzin sosial şəbəkələrdəki səhifələrinə 600-dən çox məlumat yerləşdirilib, 362000-dən çox baxış sayı qeydə alınıb, mərkəzin "YouTube" kanalına turizmlə bağlı 7 videoçarx daxil edilib. 15 fevral 2020-ci il tarixdə İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Azərbaycanın İrandakı səfirliyi ilə "Aysan Pərvaz" şirkətinin təşkil etdiyi İran və Azərbaycan üzrə ikinci ixtisaslaşmış turizm simpoziumunda Naxçıvan Muxtar Respublikası təmsil olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən yaradılmış Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi barədə məlumatlar Azərbaycanda və 20-dən çox xarici ölkədə fəaliyyət göstərən 200-dən çox mehmanxana və turoperatora elektron poçt ünvanlarına göndərilib. Həmçinin Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, sosial şəbəkələrdəki qrup və səhifələrində Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təbliği istiqamətində ardıcıl işlər görülüb. Muxtar respublikada turizm fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər tərəfindən daxili turların təşkili istiqamətində fəaliyyət gücləndirilib.

Vurğulanıb ki, qrafikə əsasən tələbələrin turizm yerlərində istehsalat təcrübəsi keçmələri təmin edilib, "Turizm könüllüsü" layihəsinin iştirakçılarının muxtar respublikanın bölgələrinə ekskursiyaları təşkil olunub. İl ərzində "Naxçıvan Muxtar Respublikasında idman turizmi" adlı albom-kataloqun hazırlanması istiqamətində iş aparılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

Bu şaxtalı günlərdə hər səhər kəndlərdən şəhərə yollanan çoxlu adam görmək olur. Onların bir hissəsi iş dalınca, əksəriyyəti isə çörək almağa gedir. Bəs kənd camaatını min bir əzabla şəhərə getməyə və çörək növbələrində saatlarla çörək növbəsi tutmağa vadar edən nədir? Məgər kəndlərə un verilmir? Yoxsa kəndli isti təndir çörəyi yemək istəmir? Bu sualla kənd camaatına müraciət edəndə belə cavab almaq olur: Kəndlərə verilən un norması tələbatı ödəmir. Adambaşına ayda 5-7 kiloqram un verirlər, aylıq unu günlərin sayına bölsək, heç 250 qram da eləmir. Əgər bu norma vaxtlı-vaxtında verilsə, yenə birtəhər ötüşmək olar.

# Naxçıvan dünən

## Şəhərə... çörək dalınca



Şəhərə çörək almağa gedənlərin dedikləri həqiqətdir. Bəzən aylarla kənd mağazalarına un gəlmir. Əllərdə dolandırılan unun bir kisəsi isə (yəni 50 kiloqramı) 3500-4000 rubla satılır. Bu, Naxçıvan şəhərinə yaxın olan kəndlərdə belədir. Uzaq kəndlərdə heç 5-6 min rubla tapmaq olmur. Kəndlərdə elə ailələr var ki, külfətin sayı 10 nəfərdən artıqdır. Belə ailələrə norma üzrə ayda bir kisə un düşür. Halbuki onları 3-4 kisə görmür. Deməli, bu ailələr ya baha qiymətə alverçidən, ya da ki şəhərin çörək mağazalarından çörək almalıdırlar. Böyük ailələrin aylıq çörək pulu orta hesabla 15 min rubldan yuxarıdır.

Kənd camaatının gəlib şəhərdən çörək almaları bəzi şəhər sakinlərini də narahat edir. Vallah kəndlini də qınamağa dəyməz. Bu şaxtalı günlərdə iqtisadi vəziyyəti ağır olan kənd camaatı heç vaxt filan qədər yolpulu verib çörək almaq üçün şəhərə gəlməz. Deməli, məcburdur. Axı hamıya çörək lazımdır.

Bizə belə gəlir ki, əgər hər ay vaxtlı-vaxtında kənd mağazalarına adambaşına 8-10 kiloqram un verilsə, heç kəs əziyyət çəkib şəhərə gəlməz və saatlarla növbələrdə dayanıb çörək gözləməz.

**“Şərq qapısı” qəzeti**
**30 yanvar 1993-cü il**

# və bu gün

## Çörək növbələrindən ərzaq təhlükəsizliyinə

*Buna ötən 25 ildə gələcəyə hesablanmış düzgün iqtisadi siyasət və susuz torpaqları hektar-hektar əkin dövriyyəsinə daxil etməklə nail olunub*

***Müharibələr, aclıqlar, çətinliklər görmüş ağsaqqal-ağbirçəklərimiz deyirlər ki, insanlara çörək qədər vacib olan başqa bir nemət yoxdur. Çörək elin varı, elin sərvətidir. El-oba çörəyi ilə tanınar. Bəli, 30 il əvvəl Naxçıvan blokadasının ilk illərindəki çətinlikləri yaşayanlar, çörək növbələrini görənlər çörək yolu gözləməyin başqa bir duyğu olduğunu yaxşı bilirlər. Həyatımız boyu çörəksiz yaşamağın mümkünsüzlüyünün, bəlkə də, fərqində olmadığımız halda, qarın içində, günün altında mağazanın qarşısında çörək maşınını gözləmək çörəyin müqəddəsliyini o qədər dərindən anladırdı ki... Məhz bu an çörəksiz yaşamağın mümkün olmadığı dərk edilə bilərdi. Məhz o növbələrdə hər yeni gün evə, ilk növbədə, çörəyin alınmasının vacibliyini düşündükcə bəli, dünyagörmüşlərin sözləri insanın beynində təkrarlanırdı: insanlara çörək qədər vacib olan başqa bir nemət yoxdur. Lakin Naxçıvan bu müqəddəs nemətlə imtahana çəkilirdi. Çörək elin varı, sərvəti olduğu üçün onun qıtlığı naxçıvanlıların hansı şəraitdə yaşadıqlarının əlavə şərhə ehtiyac olmadan göstəricisi idi.***

### Naxçıvan 30 il əvvəlki Naxçıvan deyil

*Gənclər, sözüm sizədir...*

Hər gün evlərinizdən çıxıb bu abad yurdun küçələri ilə ali və orta məktəblərə, iş yerlərinizə, əyləncə, ticarət mərkəzləri, bazar və sair ünvanlara yollanarkən yolboyu ürəkaçan mənzərələrlə qarşılaşırsınız: abad küçələr, sıralanan bir-birindən yaraşıqlı binalar, sıx yaşıllıqlar, gülkarlıqlar, parklar, xiyabanlar... Bu günün Naxçıvanında isti, işıqlı, şəraitli evlərinizlə isti, işıqlı, şəraitli ünvanlar arasında rahat bir həyat yaşayırsınız. Düşünürsünüz ki, Naxçıvan həmişə belə olub? Xeyr, üzümü sizə tutub demək istəyirəm ki, bu heç də belə olmayıb. Gəlin hər gün Naxçıvanımızın dününə bir nəzər salaq. Naxçıvanın haradan haraya, hansı vəziyyətdən bu günə gəldiyini öyrənək. Çünki dünənimizi bilməklə bu günümüzün qədrini bilə, dünənimizlə bu günümüzü müqayisə etməklə gələcəyə sanballı salnamə verə bilərik. Buyurun, tanış olun. 30 illik blokadanın ilk illərindən bir anı aşağıda sizə təqdim edirəm.

***“Naxçıvan blokadası” kitabının I cildindən:*** “Dekabrın soyuğu, sazağı ilə dostlaşan, ona qapısını açan evlərimiz artıq bizim daldalandığımız dörd divar çərçivəsindən çoxdan çıxmışdı... Bayırdan gətirdiyimiz soyuğu evdə istiyə təslim edə bilmirdik, soyuğu elə soyuq da qarşılayıb çöksüsüz bir ortam yaradırdı evlərimizdə. Artıq evə tələsmək – rahatlığa tələsmək məhfumu silinib getmişdi düşüncələrimizdən. Çünki soyuq məktəblərdən, bağçalardan, iş yerlərimizdən heç olmasa, evlərimizdəki rahatlığa doğru uzanan yolların qarşısı çoxdan maneələnmişdi. İstiliyimiz közərtidən ibarət idi. Gündəlik tapıb sobaya qoyduğumuz çör-çöp közərtisi. Bizdə belə bir söz var: ürəyin əsməyi. Bunu kimdənsə yana darıxanda işlədərdik. Bax blokadanın o imkansız günlərində ürəyimiz bir isti ocaqdan, evdən yana əsirdi. İnsan tələbatından çox-çox uzaqlarda olan yaşamımız kədərin ən dolğun ifadəsindən başqa bir şey deyildi. Qaranlıq, soyuq, kasıbçılıq... Gənclik, yeniyetməlik, uşaqlıq... Düşündürücü deyilmi? Hər üç məfhum bir-birinə nə qədər zidd idi... Yaşlı insanlar, xəstələr, körpəuşaqlı analar, hamilə, zahı qadınlar... Bir stəkan su isitməyin imkansızlığı... uşağın bələyini açıb altını dəyişmək üçün azacıq istiliyi olmayan otaqlar... xəstənin dərdinin özünə bəs etdiyi və ətrafda həmin dərdin üstünə qoyulan başqa dərdlər...

Kiminsə istəkləri naminə blokada vəziyyətinə salınan muxtar respublikanın yüzlərlə gənci blokadanın bir-birinə calanan və bitmək bilməyən dəhşətli günlərinin qaranlıq gecələrində gəncliyini itirir, soyuq küçələrdə yüzlərlə uşağın arzuları buzlaşır, bir daha yazın gəlib bu buzu əritməyəcəyi ümidsizliyində yox olurdu. Ən dəhşətlisi isə bu idi ki, naxçıvanlıların səsinə səs verən yox idi. Bunu dərk edənlər isə yaranmış vəziyyətin hələ çox uzaqlarda çıxış nöqtəsini görə də bilirdilər, görməyə də”.

Bütün bunların fonunda isə yüzlərlə gəncin, azyaşlı uşaqların çörək növbələrində açılan sabahları, bu növbələrdə ilişib qalan gələcəkləri, məhv olan arzuları var idi. Bəli, ötən illərdə Naxçıvanda ümummilli liderimizin başladığı işlərin ardıcıl, böyük məsuliyyət hissi və bacarıqla həyata keçirilməsi nəticəsində biz bugünkü Naxçıvanın sahibləriyik.





### Torpağın varsa, çörəyin var, ərzağın var

Ümummilli liderimiz Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən böyük uzaqgörənliklə ilk dəfə olaraq muxtar respublikada aqrar islahatların həyata keçirilməsinə başlamışdır. 1992-ci il aprelin 6-da Ali Məclis tərəfindən qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında”, eləcə də “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar aqrar sahənin inkişafı ilə yanaşı, etibarlı ərzaq təminatının yaradılmasına da öz təsirini göstərmişdir. Muxtar respublikada torpaq islahatının uğurla başa çatdırılması, torpaqların əsl sahibinə verilməsi yeni emal müəssisələrinin yaradılması, ərzaq məhsullarının istehsalının əhəmiyyətli dərəcədə artması, eyni zamanda yeni iş yerlərinin açılması, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir. Ulu öndərin 2001-ci il 2 mart tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı” isə ölkəmizdə ərzaq təhlükəsizliyinin bazasını təşkil edən mühüm dövlət sənədidir. Ərzaq təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaqla təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın təsdiq edilməsi ilə ölkəmizdə aqrar bölmənin maddi-texniki bazası, ümumilikdə, inkişaf istiqamətləri müəyyən edilmişdir. Bunun ardınca Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən Naxçıvan üçün mühüm əhəmiyyətə malik olmuşdur. Hələ bundan əvvəl kənd təsərrüfatının kompleks inkişafı üçün muxtar respublikada 2005-2010-cu illəri əhatə edən kartofçuluğun, 2012-2015-ci və 2016-2020-ci illəri əhatə edən meyvəçiliyin və tərəvəzçiliyin, 2017-2022-ci illəri əhatə edən arıçılığın inkişafı üzrə Dövlət proqramları qəbul olunmaqla konkret inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Muxtar respublikada ötən illərdə aqrar sektorun inkişafı istiqamətində məhsul istehsalçılarına dövlət maliyyə yardımlarının göstərilməsi, meliorasiya-irriqasiya sistemlərinin yenilənməsi, gübrələrin güzəştlə çatdırılması, səmərəli kreditləşdirmə mexanizminin formalaşdırılması, lizinqin inkişafının dəstəklənməsi, lazımi texnikaların sayının təlabata uyğun artırılması, yeni satış bazarlarının təşviqi, yeni emal müəssisələrinin, istixanaların, toxumçuluq təsərrüfatının, soyuducu anbarların yaradılması kənd təsərrüfatı sahəsində iştirakçıların aktivliyi əhəmiyyətli dərəcədə artırmışdır. Bütün bunlar ərzaq təhlükəsizliyinə gedilən yolda məsələnin bir tərəfidirsə, kənd adamları ilə görüşlər, onların əkinə-biçinə, ailə təsərrüfatları, fermer təsərrüfatlarını yaratmağa ruhlandırılması, məhsullarını realizə etmələrinə hərtərəfli şəraitin yaradılması isə məsələnin digər, həm də əsas tərəfi olmuşdur. Beləliklə, zəhmətkeş insanlarda torpağın varsa, çörəyin var, məhsulun var deyimi fonunda inam formalaşmış, bu inamla 90-cı illərin çörək qıtlığı öz yerini çeşidli kənd təsərrüfatı istehsalına vermiş, muxtar respublikada ərzaq təhlükəsizliyi təmin olunmaqla yanaşı, həm də ixrac potensialı formalaşmışdır.

### Su əkinəyararlı torpaqdır, torpaq isə məhsuldur

*Su anbarları, qapalı suvarma şəbəkələri, nasos stansiyaları, kəhrizlər...*

Muxtar respublikada kənd təsərrüfatının ildən-ilə inkişafı, zəhmət adamlarının torpağı öz iş yerlərinə, dolanışıq mənbələrinə çevirmələri, üstəlik, blokadanın ilk illərində iş üçün qonşu dövlətlərə üz tutanların torpaqa və torpağı özlərinə iş yeri seçmələri ilə yeni torpaq sahələrinə ehtiyac yaranmağa başladı. Çünki labüd əkinəyararlı torpaqlar azlıq təşkil edirdi. İllərlə el içində deyildiyi kimi, “ağzı günə yatan” yararsız torpaqları əkin üçün yararlı vəziyyətə gətirib onları zəhmət adamlarına vermək düşünülürdü. Bu isə yalnız su ilə mümkün ola bilərdi. Beləliklə, ilkin mərhələdə, 2003-cü ildə ötən əsrin 80-ci illərindən tikintisinə başlanılmış, lakin məlum səbəblər üzündən sona çatdırılmamış Vayxır Su Anbarının tikintisinə yenidən başlanılmış və muxtar respublika rəhbərinin səyi nəticəsində 2005-ci ilin dekabr ayında başa çatdırılmışdır. Su anbarına ümummilli liderimiz Heydər Əliyevin adı verilmişdir. Həcmi 100 milyon kubmetr olan anbar istifadəyə verildikdən sonra 6919 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmış, ümumilikdə isə 16830 hektar sahənin suvarma suyu ilə təmin edilməsi mümkün olmuşdur. Bundan əlavə, 2008-ci ildə Arpaçay Su Anbarı əsaslı təmir olunmuş, 2014-cü ildə Uzunoba Su Anbarı yenidən qurulmuşdur. 2014-cü ildə Kəngərli rayonunun Yeni Kərki, Xıncab, Təzəkənd və Böyükdüz kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təmin olunması məqsədilə Uzunoba Su Anbarından qidalanan su xəttinin çəkilişi başa çatdırılmışdır.

Meliorasiya-irriqasiya sistemlərinin yenilənməsi istiqamətində ötən illər ərzində Kəngərli rayonunda 2326, Babək rayonunda 1170, Culfa rayonunda 1050, Şahbuz rayonunda isə 618 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir. Beləliklə, indiyədək, ümumilikdə, 5200-dək hektar sahədə qapalı suvarma şəbəkəsi yaradılmışdır. Həmçinin Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılmışdır. Şahbuz rayonunun Külüs kəndi ərazisində yeni nasos stansiyasının tikintisi və təzyiqli boru xəttinin quraşdırılması işləri davam etdirilmiş, nasos stansiyası vasitəsilə suvarılacaq 400 hektar sahə əkin üçün yararlı hala salınmışdır.

Hazırda muxtar respublikada 30-dan artıq su anbarı və sututarları mövcuddur ki, bunlara da Araz Su Anbarı istisna olmaqla, ümumilikdə, 300 milyon kubmetrdən artıq su ehtiyatı toplamaq mümkündür.

Ötən dövr ərzində muxtar respublikada torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması üçün kollektor-drenaj şəbəkələri, açıq və qapalı drenaj xətləri çəkilmişdir ki, bu da min hektarlarla torpaq sahələrinin meliorativ cəhətdən yaxşılaşdırılmasına səbəb olmuşdur. Muxtar respublikada öz axını ilə suvarma şəbəkələri ilə yanaşı, mexaniki suvarma sistemlərinin də böyük əhəmiyyəti vardır. Belə ki, Araz çayı və digər su mənbələri üzərində qurulmuş nasos stansiyaları və ərazidəki subartezian quyuları su təminatında mühüm rol oynayır. Ötən dövr ərzində muxtar respublikada 50-yə yaxın yeni nasos stansiyası tikilərək istismara verilmişdir. Hazırda 102 nasos stansiyası istismar olunur. Əkin sahələrinin və əhalinin suya olan tələbatının ödənilməsində mühüm rolu olan subartezian quyuları və kəhrizlərin istismarına da diqqət artırılmışdır. Ötən müddət ərzində 450-dək subartezian quyusu qazılmış, hər il yüzlərlə quyunun təmiri həyata keçirilir. Kəhrizlər İdarəsi tərəfindən qeydiyyata alınan 388 kəhrizdən 337-si istismar olunur, onlardan 150-dən çoxu yenidən bərpa edilərək əhalinin istifadəsinə verilmişdir. Muxtar respublikada yeraltı sulardan həm suvarma, həm də içməli su kimi istifadə olunmaqdadır. Beləliklə, su ilə yeni həyat verilən torpaq sahələri insanların iş yerinə, dolanışıq mənbəyinə çevrilməklə, bazarlarımızın bolluğuna, ilin bütün fəsillərində təsinlən tərəvəz məhsullarını almağa imkan verməklə yanaşı, eyni zamanda heyvandarlığın inkişafına da böyük stimul yaradır ki, bu da muxtar respublikada, ümumilikdə, kənd təsərrüfatının inkişafı ilə nəticələnir.

### Bol çörəkli, bol nemətli Naxçıvan

Dünyanın harası olursa-olsun, ən kiçik əyalətlərdən tutmuş böyük şəhərlərədək, harada rəhbər insan amilini, rifahını bütün məsələlərdən öndə saxlayırsa, orada inkişaf, tərəqqi də olur, əhali-rəhbər birliyi, həmrəyliyi də. Ötən illərdə bunu Naxçıvanda əyani şəkildə gördüyümüz üçün bu fikri belə əminliklə söyləyə bilirik. Budur, Naxçıvan göz qarşısındadır: dünəni və bu günü ilə. O dünəni görənlərlə və bu günü yaşayanlarla... Fərq o qədərdir ki, günlərlə, aylarla müqayisə mövzusudur bu gün Naxçıvan. Ən əsası isə o illərin acınacaqlı çörək qıtlığını hələ uzun illər öncədən çörək bolluğu ilə əvəz edəndir Naxçıvan. Bu gün Naxçıvan çörəkli, qonaqlı-qaralı, açıq süfrəli, bol nemətli bir diyardır. 30 il əvvəlin acınacaqlı blokadasına, sərhədlərinin təhlükəli vəziyyətinə, miskin görüntülərinə, yoxluğuna, qıtlığına, qaranlığına, soyuğuna yenə də blokada fonunda inkişafı, ən ucqar kəndlərindən şəhərlərinədək əhatə edən hərtərəfli quruculuq işləri, istehsal etdiyi elektrik enerjisi, bol, çeşid-çeşid, həm də ixrac məhsulları ilə meydan oxuyur Naxçıvan. 30 ilin əvvəlində çörək qıtlığı ilə üzləşən insanlar isə bu gün ərzaq təhlükəsizliyi təmin olunan qədim diyarda bu səbəbdən sağlam, təhlükəsiz, bolluq içində həyat sürürlər.

**Mətanət MƏMMƏDOVA**



*Qəlblər ovsunlayır torpağı, daşı,*
*Şəfəqə bələnir doğulanda dan.*
*Çox qədim olsa da, tarixdə yaşı,*
*Gənclik libasını geyib Naxçıvan!*

*"Şərqin qapısı"dı, "Nuhun yurdu"du,*
*Nəsillər yaşayır "Gəmiqaya" da.*
*Məğrur "Əlincə"di, qalib ordudu,*
*Sədərək sınmadı düşmənə, yada.*

*Mənim Naxçıvanım Odlar Yurdunun,*
*Qeyrət qalasıdı, ər balasıdı.*
*Günəş qürub çağı büsbütün onun,*
*Çöhrəsi Şahbuzun dağ lalasıdı.*

*İbrahim YUSİFOĞLU*

## Naxçıvanda elm adamlarına qayğı göstərilir, onların fəaliyyətləri qiymətləndirilir

Hər bir dövlətin gələcəyi, gücü, qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır. Naxçıvanda elmin çox zəngin tarixi və ənənələri vardır. Əsrlərboyu naxçıvanlı alimlər elmi təfəkkürün müxtəlif sahələrində meydana gətirdikləri sanballı əsərlərlə dünya elminə də dəyərli töhfələr veriblər. Bu gün də diyarımızda elmin inkişafı sahəsində mühüm işlər görülür, elmi potensial inkişaf etdirilir. Elm adamlarına qayğı göstərilir, onların fəaliyyəti üçün hərtərəfli şərait yaradılır, elmlə məşğul olanların fəaliyyəti qiymətləndirilir. Ötən il AMEA Naxçıvan Bölməsinin əməkdaşları – Bioresurslar İnstitutunun Dənli, paxlalı və texniki bitkilər laboratoriyasının rəhbəri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Pərviz Fətullayev, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri Fizzə Quliyeva 2020-ci ildə elm sahəsindəki nailiyyətlərinə görə bölmənin təsis etdiyi "İlin alimi" fəxri diplomu ilə təltif ediliblər. Gəlin onlarla tanış olaq.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Dənli, paxlalı və texniki bitkilər laboratoriyasının rəhbəri, dosent **Pərviz Fətullayev** 1962-ci il may ayının 10-da Babək rayonu, Cəhri kəndində, sənətkar ailəsində anadan olub.



1979-cu ildə Cəhri kənd tam orta məktəbini bitirib. 1980-1982-ci illərdə Sovet Ordusu sıralarında Xabarovsk vilayətində həqiqi hərbi xidmətdə olub. 1985-ci ildə Leninqrad Kənd Təsərrüfatı İnstitutunun (indiki Sankt-Peterburq Dövlət Aqrar Universiteti) aqronomluq fakültəsinə daxil olub, 1990-cı ildə həmin institutun Aqronomluq fakültəsini bitirib və alim-aqronom diplomu alıb. 1990-1994-cü illərdə Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyində elmi işçi vəzifəsində çalışıb. 1994-1997-ci illərdə Azərbaycanın Milli Ordusu sıralarında taqım komandiri, bölük komandiri vəzifələrində xidmət edib. 2004-cü ildən bu günə kimi AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunda işləyir. 2005-ci ildə AMEA Genetik Ehtiyatlar İnstitutunun aspirantura şöbəsinə qəbul olub. 2010-cu ildə "Naxçıvan Muxtar Respublikası şəraitində yumşaq buğda nümunələrinin öyrənilməsinin seleksiyada əhəmiyyəti" mövzusunda dissertasiya işini müdafiə edib. 2011-ci ildə aqrar elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 2014-cü ildə Seleksiya və toxumçuluq ixtisası üzrə dosent elmi adını alıb. Bir monoqrafiya, iki kitab, yeni bitki sortunun və 90-dan çox elmi məqalənin müəllifidir. Alimin 10-dan artıq məqaləsi beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap edilib. Pərviz müəllimin əsas elmi nailiyyətləri sırasında ilk dəfə olaraq AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda yumşaq buğdanın 4 növmüxtəlifliyinə aid 497 sort nümunəsindən ibarət genofond yaradılıb, suvarma şəraitində onların morfoloji, bioloji, təsərrüfat və aqrotexniki xüsusiyyətləri müqayisəli şəkildə öyrənilib. Muxtar respublika şəraitində ilk dəfə olaraq yumşaq buğda nümunələrinin qışadavamlılığı öyrənilib. Nümunələrin məhsuldarlığı və məhsuldarlıq elementləri dəqiqləşdirilib, standart sortlardan müsbət fərqlənən Graecum növmüxtəlifliyinə aid 28, Lutescens növmüxtəlifliyinə aid 24, Erythrospermum növmüxtəlifliyinə aid 44, Ferrugineum növmüxtəlifliyinə aid isə 6 yüksək məhsuldar sort nümunələri aşkar edilib. Həmçinin yumşaq buğda nümunələrinin quraqlığa davamlılığı öyrənilib və 31 nümunənin quraqlığa davamlı olduğu aşkar edilib. Nümunələrin xəstəliklərə, ziyanvericilərə qarşı davamlılığı qiymətləndirilib. Hazırda alim muxtar respublikada payızlıq buğdaların seleksiyasının elmi əsasları və yeni sortların yaradılması mövzusunda tədqiqat işləri aparır.

**Fizzə Quliyeva** 1987-ci il fevralın 25-də Naxçıvan şəhərində anadan olub.



1993-2004-cü illərdə Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbdə təhsil alıb. 2004-2008-ci illərdə Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Təsviri incəsənət və rəsmxət müəllimliyi ixtisası üzrə bakalavr təhsili alıb. 2009-2011-ci illərdə Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisası üzrə magistr təhsili alıb. 10 ildən artıq əmək fəaliyyətindədir. İki il Naxçıvan Dövlət Universitetinin Tərbiyə şöbəsinin nəzdində fəaliyyət göstərən "Universitet dünyası" muzeyinin müdiri vəzifəsində işləyib. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olub. Hazırda Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvüdür.

Fizzə xanım 2014-2017-ci illərdə Naxçıvanın qədim yaşayış yerlərində tədqiqatlar aparan Azərbaycan-Fransa, Azərbaycan-Amerika beynəlxalq ekspedisiyaları ilə əməkdaşlıq edib. 2015-2017-ci illərdə Bakı şəhərində Milli Azərbaycan Tarixi Muzeyində "I Kültəpə materiallarının yenidən tədqiq olunub çap olunması" adlı beynəlxalq Azərbaycan-Fransa layihəsi çərçivəsində aparılan tədqiqatlarda iştirak edib. Elmi fəaliyyətini Naxçıvanın təsviri və dekorativ-tətbiqi sənətlərinin tədqiqinə həsr etmiş tədqiqatçı 80 elmi və publisistik məqalənin, 3 kitabın müəllifidir.

Fizzə Quliyeva respublikada ilk dəfə olaraq Əməkdar incəsənət xadimi Şamil Qazıyevin həyatı və yaradıcılığını əsaslı şəkildə araşdırıb və nəşr edərək oxucuların istifadəsinə verib. Həmçinin görkəmli rəssam İbrahim Səfinin həyatı və yaradıcılığını tədqiq edərək kitab şəklində nəşr etdirib. Bununla yanaşı, muxtar respublikamızın müxtəlif dövr tarixi abidələrinin sistemli öyrənilməsi, tədqiq edilməsi, tədris olunması üçün ali təhsil müəssisələri, doktorant və dissertantlar üçün faydalı olan "Naxçıvanın tarixi abidələri" dərsliyini professor Vəli Baxşəliyevlə birgə hazırlayıb.

Gənc alim Naxçıvanın Eneolit və Tunc dövrləri dekorativ-tətbiqi sənət nümunələri ilə əlaqədar tədqiqatlar aparıb. Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan və İranda təşkil olunmuş beynəlxalq konfranslarda iştirak edib. Naxçıvanın Tunc və Erkən Dəmir dövrlərinə aid nəfis tərtibatlı zərgərlik nümunələrinin bədii dəyərləndirməsini apararaq onların yerli əhəmiyyətə malik olduğunu tədqiqatlarında işıqlandırıb. Bununla yanaşı, Eneolit və Tunc dövrləri dulusçuluq məmulatının ornamental müxtəlifliyini öyrənərək Naxçıvanda qədim zamanlardan formalaşan naxışsalma sənətinin inkişafını tədqiq edib.

*Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı nəticəsində elm və texnologiya həyatın bütün sahələrində davamlı inkişafın yeni səviyyəsinə keçməyə imkan verir. Hər zaman cəmiyyətin inkişafına, ictimai həyatına böyük təsir göstərən elm sahəsi müasir qlobal problemlərin həllində əsas vasitəyə çevrilib. Odur ki, hər birimiz "Beşikdən qəbrədək elm öyrənin" kəlməsinin mahiyyətinə daha yaxşı varmalı, elmli, bilikli olmaq üçün çalışmalıyıq.*

**Güntac ŞAHMƏMMƏDLİ**

*AMEA Naxçıvan Bölməsində akademik İsmayıl Hacıyevin "Naxçıvan v istorii qosudarstvennosti Azerbaydjana" (Naxçıvan Azərbaycanın dövlətçilik tarixində) adlı monoqrafiyasının təqdimatı keçirilib.*

## Monoqrafiyanın təqdimatı keçirilib



Tədbiri giriş sözü ilə açan bölmənin Elm və təhsil şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov bildirib ki, Naxçıvan Bölməsində Naxçıvanşünaslıq elminin bütün sahələri, eləcə də Naxçıvan tarixinin tədqiqi istiqamətində tədqiqatlar aparılır, əldə olunan elmi nəticələr müxtəlif kitab və monoqrafiyalarda, yüksək nüfuzlu jurnallarda dərc olunur. Azərbaycanın dövlətçilik tarixində Naxçıvanın rolunun və yerinin araşdırılması aktuallıq kəsb edən məsələlərdəndir. Akademik İsmayıl Hacıyevin uzun illər ərzində apardığı tədqiqatların nəticələri məhz təqdimatı keçirilən kitabda əksini tapmışdır.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli çıxışında bildirib ki, giriş, səkkiz fəsil, nəticə, biblioqrafiya, adlar göstəricisi və əlavələrdən ibarət olan monoqrafiya Sankt-Peterburq şəhərində "Akademiya İssledovaniya Kulturı" nəşriyyatında çap olunub. Müəllif əsərdə əvvəlcə diqqəti Azərbaycan tarixində "dövlət" və "dövlətçilik" problemi, onun xronologiyasına dair baxışlara yönəltmiş, Naxçıvanın ərazisi, təbiəti və iqlim xüsusiyyətləri ilə bağlı məlumat vermişdir.

Professor Fəxrəddin Səfərli akademik İsmayıl Hacıyevin uzunmüddətli tədqiqatlarının nəticəsində ərsəyə gələn monoqrafiyanı Naxçıvanın Azərbaycan dövlətçilik tarixində yeri və mövqeyi məsələsinə həsr olunmuş ilk sistemli tədqiqat əsəri kimi qiymətləndirib. Qeyd edib ki, bu əsər ermənilərin Azərbaycana, xüsusilə onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvana ərazi iddialarının heç bir əsası olmadığını, bu ərazinin ən qədim zamanlardan Azərbaycan xalqına mənsub olmasını sübuta yetirən çox sanballı bir tədqiqatdır.

Sonra bölmənin əməkdaşlarından tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev və AMEA-nın müxbir üzvü, professor Tofiq Əliyev məruzə ətrafında çıxış ediblər.

Sonda çıxış edən akademik İsmayıl Hacıyev tədbir iştirakçılarına öz təşəkkürünü bildirib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 32